F. Köçərli adına Respublika Uşaq Kitabxanası

# Sehirli fırçası ilə gözəlliklər yaradan rəssam
# Səttar Bəhlulzadə - 115



**Sənəti insan yaşadır, insan isə sənəti ölümsüz edir...**

*(Veblioqrafiya)*

**Bakı – 2024**

© F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2024.

**Tərtib etdi:** **Məlumat-biblioqrafiya şöbəsi**

**Ağayeva İranə**

**Ünvan: Bakı şəhəri, S.Vurğun küçəsi 88**

**Əlaqə: (+99412) 597-08-79, (+99412) 597-09-86**

**info@clb.az**

**ushaqkitabxanasi@gmail.com**

**childlibbaku@yahoo.com**

## Həyat və yaradıcılığı

Azərbaycan rəssamlıq sənətinin ustadı, Azərbaycan SSR Əməkdar incəsənət xadimi (1960), Azərbaycan SSR Xalq rəssamı (1963), Azərbaycan SSR Dövlət mükafatı laureatı (1972) Səttar Bəhlulzadə öz fırçası ilə Azərbaycan incəsənətində silinməz izlər qoymuşdur. Öz vətəninin gözəlliklərinə valeh olan Səttar Bəhlulzadə Azərbaycan təbiətinə həsr edilmiş yüzlərlə mənzərələr çəkmişdir. Onun mənzərələrində biz Azərbaycan təbiətinin zəngin məzmunlu, əsl poetik obrazını görürük.

Səttar Bəhlulzadə 1909-cu il dekabrın 15-də Bakının Əmircan kəndində anadan olmuşdur. 1927-ci ildə rəssamlıq məktəbinə, 1931-ci ildə Azərbaycan Rəssamlıq Məktəbinə, 1933-cü ildə isə Moskva Dövlət Rəssamlıq İnstitutuna daxil olmuş, 1941-ci ildə V. İ. Surikov adına Moskva Rəssamlıq İnstitutunu bitirmişdir.

Səttar Bəhlulzadənin yaradıcılığında tarixi mövzular və tarixi şəxsiyyətlərin portretləri "Babək üsyanı", "Fətəli xan", "Füzulinin portreti" və bu kimi başqa əsərlər mühüm yer tutmuşdur. Müharibədən sonrakı illərdə Abşeronun neft mədənlərini, bağ və kəndlərini təsvir edən rəsmlər yaratmışdır. Onun əsərləri arasında təbiət təsvirləri "Abşeron etüdləri", "Xəzər üzərində axşam", "Bazardüzü", "Əbədi məşəllər", "Vətənimin baharı", "Azərbaycan nağılı", "Suraxanı atəşgahı", "Əmircan" "Əfsanəvi torpaq", "Şahnabat", "Naxçıvan. Axşamçağı Ordubad bağlarında", "Vətənimin baharı", "Qudyalçay vadisi", "Qızılbənövşəyə gedən yol", "Şamaxı üzümlükləri" və digər əsərləri üstünlük təşkil etmişdir.

Yaradıcılığının ən önəmli nüanslarından biri rəssamın mavi rəngdən və onun tonlarından istifadə edərək yaratdığı əsərlər idi. Bunlar həmin dövrün orijinal və təzadlı sənət əsərləri idi. Bu əsərlərə "Xəzər gözəli" (1961), "Mavi əfsanə" (1961), "Petrol daşları" (1961), "Kür boyu", "Əbədi alov", "Mavi göl", "Kəpəzin gözyaşları" tablolarını nümunə göstərmək olar. Rəssam 1961-ci il, 75x120 sm ölçülü "Mavi əfsanə" adlı əsərində Bakı sahilində mavi səmanın sonsuzluğunda bir axşam təsvir etmiş və əsərə emosional "romantik" anlar qatmağa nail olmuşdur.

1973-cü ilin avqust ayında rəssamın səhhətində ciddi problemlər yaşanır. O, bir müddət Bakıda müalicə olunsa da, vəziyyəti yaxşılaşmır. Həmin il rəssamın Moskva şəhərində fərdi sərgisi açılır. Rəssam həm sərgidə iştirak etmək, həm də müalicə məqsədilə dostlarının maddi yardımı ilə Moskvaya yola düşür. Burada Petrovski adına xəstəxanada rəssama xərçəng diaqnozu qoyulur və əməliyyat olunur. Səttar Bəhlulzadə 1974-cü il oktyabrın 14-də Moskvada vəfat edir. Rəssam oktyabrın 16-da Bakıda Fəxri Xiyabanda deyil, öz vəsiyyəti ilə doğulduğu Əmircan kəndində , anasının məzarının yanında dəfn edilib. Bəhlulzadənin məzarı üzərində heykəltəraş Ömər Eldarov tərəfindən əlində iki boş şəkil çərçivəsi olan rəssamın heykəli ucaldılmışdır.

F.Köçərli adına Respublika Uşaq Kitabxanası Səttar Bəhlulzadənin 115 illik yubileyi münasibətilə rəssam haqqında fondunda mövcud olan çap əsərlərinin tam mətnli biblioqrafik siyahısını hazırlayaraq oxucuların istifadəsinə təqdim edir.

## Görkəmli şəxslər Səttar Bəhlulzadə haqqında

Səttar Bəhlulzadə Azərbaycan rəssamlıq sənətində yeni bir məktəb yaratmışdır… rəssamlıq məktəbimizdə Səttar Bəhlulzadə yaradıcılığı ilə yeni bir səhifə, yeni bir yol, yeni bir üslub açılıbdır.

**Heydər Əliyev**

*Ümummilli lider*

O rənglər, o cizgilər mənimlə bir dildə - Səttar dilində danışır. O rənglərə, o boyalara, o xallara mən Səttar aləmində, Səttar dünyasında rast gəlirəm. Bir olum olmasın, yüz ölüm olsun - əsl sənətkara ölüm yoxdur, zaval yoxdur...

Bəhlulzadənin ən gözəl lövhələri rənglərin ahəngindən, şəfəqlərin oyanmasından, kölgələrin titrəməsindən doğan nəğmələrdir. Bu nəğmələri biz adi nəğmələr kimi qulaqlarımızla deyil, qəlbimizlə, könlümüzlə eşidirik.

Müasir Azərbaycan rəssamlığını bu poetik fırçalı sənətkarsız təsəvvür etmək çətindir. Onun yaradıcılığı sənətimizin adı fəxr ilə çəkiləcək bir qoludur.

**Rəsul Rza**

*xalq şairi*

Səttarı haqlı olaraq Azərbaycan təbiətinin mahir müğənnisi adlandırırlar. Lakin doğma yurdun gözəlliklərini ehtirasla sevən rəssam təbiətin bu və ya digər motivlərinin üzünü köçürmürdü, o, torpağın nağılını, gözəlliyin əfsanəsini təsvir edirdi. Bəhlulzadənin tablolarında Azərbaycan epikdir, əfsanəvidir, nağılvaridir.

Məlumdur ki, sənətkarlığın əsl peşəkarlıq vərdişləri ilə sənətinin demokratik aydınlığı, yalnız ən məşhur sənətkara nəsib olur. Səttar Bəhlulzadə məhz belə sənətkar olmuşdur və həmişəlik belə sənətkar olaraq qalacaqdır.

**Anar**

*yazıçı*

Bəhlulzadənin yaradıcılığı olduqca orijinaldır. Mən əminəm ki, onun yaradıcılığı gələcək nəsli məftun edəcəkdir. İstər sənətşünaslar, istərsə də rəssamlar Səttarın yaradıcılığını həmişə maraq və heyrətlə səhifələyəcək, öyrənəcəklər. Biz rəssamlar

fəxr edirik ki, müasirimiz Səttar Bəhlulzadə bu günkü təsviri sənətimizə ancaq ona xas olan, tamamilə yeni bir parlaqlıq və əlvanlıq gətirir.

Səttar Bəhlulzadə, Azərbaycan incəsənəti aləmində parlaq bir hadisə kimi təcəssüm edir. O, təkrarolunmaz bir rəssamdır. Onun yaradıcılığını göz qarşısına gətirəndə istər-istəməz fikirləşirsən ki, görəsən bizim sənətdə ikinci bir Səttar yarana bilərmi?

Səttar Bəhlulzadə təkrarı olmayan və təkrarolunmaz böyük rəssamdır.

Səttarın tabloları Azərbaycan haqqında, onun gözəlliyi, zərifliyi, bərəkətliliyi haqqında həmişə təravətini saxlayan nəğmədir.

**Salam Salamzadə**

*xalq rəssamı*

Səttarın fantaziyası həyatdan ayrı deyil, dərin köklərlə torpağa bağlıdır Azərbaycan torpağına, təbiətinə. Səttar sənəti, Səttar əsərləri əbədidir və əfsanəvi torpağımızın bədii möcüzələridir.

Səttarın fantaziyası həyatdan ayrı deyil, dərin köklərlə torpağa bağlıdır Azərbaycan torpağına, təbiətinə. Səttar sənəti, Səttar əsərləri əbədidir və əfsanəvi torpağımızın bədii möcüzələridir.

**Mürsəl Nəcəfov**

*sənətşünas, professor*

“Sair rəssam”, “Azərbaycan torpağının nəğməkarı” adlandırılan Səttar Bəhlulzadə, doğrudan da, poetik təfəkkürlü, şair qəlbli sənətkardır. Çünki tablolarında musiqi var. Onun rəngləri oxuyur... “Tut ağacları”, “Muğanın söyüdləri”, “Kəpəzin aynası”, “Mərdəkan bağlarında” peyzajlarının özü musiqili poeziyadır...

**Süleyman Rüstəm**
*şair*

Orijinal istedadlı, orijinal taleli bu insan övladı gənc yaşlarından gözəllik aşiqi olmuş, doğma torpağın sirrini bilib, hər bir çiçəyini, hər bir otunu belə tanımışdı. O, insanların ruhunu və zövqünü oxşamaq, “həyat gözəllikdir” həqiqətini sənəti ilə sübut etmək üçün öz taleyini, şəxsi həyatını əbədi sənət yoluna qurban vermiş sənətkarlardandır. Səttar Bəhlulzadə kimi ustad sənətkara ölüm yoxdur! O, bütün dövrlərin oğludur. Bu ad - Azərbaycan xalqının mədəniyyət tarixi səhifələrindən heç bir vaxt silinməyəcəkdir.

**Mikayıl Abdullayev**

*xalq rəssamı*

Səttar Bəhlulzadə sözün həqiqi mənasında rənglərin nəğməkarı idi. O, öz nəğmələrini irili-xırdalı lövhələrdə çox ustalıqla hopdurmuşdu. Rəssamın xoşbəxtliyi ondadır ki, bu

nəğmələrin notunu ziyalı da, adi fəhlə də, kəndli də yaxşı başa düşür. .... Səttar rənglərin dilini, xasiyyətini elə duyurdu ki, ona valeh olmaya bilmirdin. Bizə məlum rənglərdən Səttar öz rənglərini yaratmışdı. O, rənglərə öz qanını, öz xasiyyətini qatıb. Hər dəfə tablolara yenidən baxanda Səttar qəlbinin döyüntüsünü görüb deyəcəyik: Bu - Səttardır!

**Tahir Salahov**

*rəssam*

## Səttar Bəhlulzadəyə həsr olunmuş şeirlər

Seyr edib sərgini mən sənətə alqış deyirəm
Usta, fırçandakı bu qüdrətə alqış deyirəm.
Əsərindən duyuram qışda bahar ətrini mən,
Canlı rənglərdəki şeriyyətə alqış deyirəm.
Sənə ilham verən hər an Vətəndir, Vətənin,
Eşqinin həmdəmi ülviyyətə alqış deyirəm.
Ey əziz Səttarımız, möcüzə var fırçanda,
Min kərə səndəki bu sərvətə alqış deyirəm.

**Süleyman Rüstəm**

Sənin istedadın, sənin şöhrətin
Rəssam ilhamının təntənəsidir!
Məhəbbətlə dolu canlı sənətin
Vətən torpağının xəritəsidir!
Mənim rəssam dostum! Bir fəslin deyil,
Dörd fəslin ətri var əsərlərində.
Sənin lövhələrin bir nəslin deyil.

**Əli Tudə**

Rənglərin əks edir söz qüdrətini,
Sənət dünyasına adını yazdın.
Ana yurdumuzun şeriyyətini
Belə verməsəydin Səttar olmazdın.

**Məmməd Rahim**

Şəninə yüz yerdə tərif, söz olub.
Rəqibin az olub desəm, düz olmaz.
Neçə siyahıdan adın pozulub.
Tarixə yazılıb, orda pozulmaz!
Məcnunu olduğun təbiət kimi
Xalqın ürəyində ilahiləşdin
Bütün rəqiblərə bir ibrət kimi.
Paxıllar kiçildi, sən dahiləşdin!

**Tofiq Bayram**

Göz açıb varlığın məftunu oldun
Vurğunmu doğmuşdu təbiət səni?
O, cahan yaratdı, sən onu duydun.
Gətirdi ilhama bu sənət səni.
Sənət ilahəsi oldu sənə yar.
İlham pərisi də ən məhrəm qonaq
Nəğməyə çevrildi adi boyalar
Canlandı lövhəndə meşə, dərə, dağ.

**Məlik Hüseyn**

Ey bizim ölkəmizin incə, gözəl rəssamı,
Şairanə qələmin eldən alıb ilhamı.
Əlli yaşda səni yad etdi mübarək vətənin
Sevinir yüksəlişinlə bütün ellər də sənin.

**Əliağa Vahid**

Odlar torpağının sənətkar oğlu,
Bağlar diyarına sən xoş gəlmisən.
Təbiət vurğunu, ay bahar oğlu,
Vətən gülzarına sən xoş gəlmisən.
Gəl yenə seyr elə Qızbənövşəni,
Qudyalçay vadisi güldür, çiçəkdir.
Ətirli tarlanı, zümrüd meşəni,
Gördükcə ürəyin sevinəcəkdir.

**Mövlud Qonaq**

Əsərində Göygölü, Şahdağını görürük,
Söyüdlərin titrəyən yarpağını görürük.
Qartal qanad açanda, qaranquşlar uçanda
Tapır gözəl əksini sənin mahir fırçanda.
Sənətində canlanır bizim dilbər meşələr,
Gözəllərin gözünə bənzəyən bənövşələr.

**Mirmehdi Seyidzadə**

## Səttar Bəhlulzadənin rəssamlar tərəfindən çəkilmiş şəkilləri və hazırlanmış portretləri



Rəssam: Tağı Tağıyev, 1955-ci il



Rəssam: Toğrul Nərimanbəyov, 1960-cı il





Heykəltaraş: Ömər Eldarov, 1975-ci il

Heykəltaraş: Böyükağa Mirzəzadə, 1956-cı il

## Səttar Bəhlulzadə şəkillərdə

















## Səttar Bəhlulzadə qrafikası



Torpağın arzusu, 150 x 225 sm, 1963.



Füzulinin portreti, orqalit, yağlı boya, 1969-1970.



Mənim anam, 200 x 230 sm, 1972-1973.



Bazardüzü, 90 x100 sm, 1965.



Kəlağayı ilə natürmort, 90 x 115 sm, 1973.



Qızbənövşəyə gedən yol, 112 x 180, 1953.

## Səttar Bəhlulzadənin ev muzeyi və orada saxlanılan eksponatlar

Səttar Bəhlulzadənin xatirə muzeyi 1981-ci ildə Əmircan kəndində neft mesenatı Murtuza Muxtarovun tikdirdiyi ikiminarəli məsciddə təşkil olunmuşdu. Sovet dövründə məsciddə fəaliyyət göstərən toxuculuq sexi oradan köçürülərək rəssamın muzeyi açıldı. 1989-cu ildə isə məscidlərin fəaliyyətinin bərpa edilməsi ilə əlaqədar olaraq rəssamın xatirə muzeyi bağlandı, əsərləri və şəxsi əşyaları isə R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyinə köçürüldü.

1994-cü ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sərəncamına əsasən rəssamın yaşadığı evdə ev-muzeyinin yaradılması qərara alınmışdır.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən Səttar Bəhlulzadənin yaşadığı evdə əsaslı təmir-bərpa işləri aparılmış, burada rəssamın ev-muzeyi yaradılmışdır. Tanınmış rəssam və sənətşünaslar, ictimaiyyət nümayəndələrinin iştirakı ilə muzeyin təntənəli açılış mərasimi keçirilmişdir.

Muzey iki mərtəbəli binadan və həyətdən ibarətdir. Muzeyin ekspozisiyası ikinci mərtəbədəki 5 otaq və dəhlizdən ibarətdir.











Səttar Bəhlulzadənin etüd çantası



Səttar Bəhlulzadənin fırçaları



Səttar Bəhlulzadənin molberti




Səttar Bəhlulzadə haqqında kataloq (fransız dilində)

## Haqqında kitablarda




[Səttar Bəhlulzadə : biblioqrafiya. - Bakı : M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, 2009. - 172 s.]

Biblioqrafiyada görkəmli şəxslərin Səttar Bəhlulzadə haqqında dediyi fikirlər, Səttar Bəhlulzadə haqqında olan kitabların siyahısı, Azərbaycan Dövlət İncəsənət Muzeyinin “Rəngkarlıq” fondunda saxlanılan əsərlərinin siyahısı və s. Öz əksini tapmışdır.




**Quliyev Ə.** Əsrin dahisi, sənətin fədaisi // XX əsr Azərbaycan incəsənəti haqqında oçerklər. - Bakı : Təhsil, 2012. - S. 13-15.

Bu kitab XX əsr Azərbaycan təsviri sənətinin ən görkəmli nümayəndələri və digər məşhur Azərbaycan rəssamları və heykəltaraşları haqqında dolğun və ətraflı məlumat verən ilk topludur. Kitabda hər bir rəssam haqqında, onun həyat və yaradıcılığı, həm də yaradıcılığının səciyyəvi xüsusiyyətləri və əsərlərinin təhlili barədə müfəssəl məlumatlar əks olunub.




**Bayram T.** Sənətin Məcnunu ; Yamanlığa yaxşılıq ; Ruhun şad olsun ; Fərqimiz : Səttar Bəhlulzadəyə həsr olunur // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 121-122.

Tofiq Bayramın oxuculara təqdim olunan bu kitabında müxtəlif illərdə yazdığı şeirləri toplanmışdır. Bu kitaba müəllifin, həmçinin "Şairin şikayət"i mənzum pyesi , "Təbrik çiçəkləri" və "Yaralı nəğmə" poemaları daxil edilmişdir.




**Rza X.** Səttar Bəhlulzadəmiz : şeir // Seçilmiş əsərləri. 2 clddə. C. I. - Bakı : Şərq-Qərb, 2005. - S. 51-52.

Təqdim olunan kitabda görkəmli şairin ədəbi fəaliyyətinin 1950-80-ci illər dövrünü əhatə edən poetik nümunələr toplanmışdır. Həmin əsərlərdə siyasi və publisist təfəkkür əhəmiyyətli dərəcədə güclüdür.




**İsgəndərzadə E.** Səttar Bəhlulzadə nağılı : rəsmlərlə poema // Çərçivəsiz rəsmlər : Vektor Nəşlər Evi, 2004. - S. 41-64.

Kitabda Azərbaycanın görkəmli alimi və şairi, professor Elçin İsgəndərzadənin son illərdə yazdığı on poema toplanıb.




**Rza R.** Rənglər şairi ; Sən xoşbəxtsən, qardaşım! : Səttar Bəhlulzadə haqqında // Seçilmiş əsərləri. 5 cilddə. C. 5. - Bakı : Öndər, 2005. - S. 226-231.

Xalq şairi R. Rzanın beşcildliyinin bu cildində müəllifin zəngin bədii irsini tamamlayan ədəbi-publisistik yaradıcılığından nümunələr toplanmışdır. Kitabda həm də klassik ədəbiyyatımızın bir çox nümayəndələri haqqında, memarlığımız, bayatılarımız, musiqimiz haqqında danışılmışdır.




**Qurban T.** Sənətin ecazkar yolu : Səttar Bəhlulzadə haqqında // Ömür yolları. - Bakı : OL, 2013. - S. 170-176.

Bu kitabda oxucuya həm Azərbaycanın dahi şəxsiyyətlərinin və müəllifin yazıçı həmkarlarının, həm də öz mühitində nüfuz qazanmış sadə insanların həyat səhifələri təqdim olunur. Kitab müəllifin 30 ilə yaxın dövr ərzində dərc elətdirdiyi məqalələr toplusudur. Oxucu Teyyub Qurban publisistikası ilə tam şəkildə tanış olmaq imkanı əldə edəcək.




Bəhlulzadə Səttar Bəhlul oğlu (1909-1974) // Azərbaycan incəsənəti. I cild. - 2010. - S. 29-30.

Kitab oxucuları çoxminillik Azərbaycan incəsənəti barəsində məlumatlandırmaq məqsədilə qələmə alınıb. Burada həmçinin Azərbaycan incəsənəinin çox qədimlərdən başlayıb bugünə kimi özünəməxsus olan inkişafından bəhs edir.

## Haqqında dövri mətbuatda


**Abbaslı T.** Bədii təbiət ustadı : Təbiətimizin fırça şairi Səttar Bəhlulzadə // Mədəniyyət. - 2014. - 12 dekabr. - S. 13.

**Abbaslı T.** Səttar təbiəti, təbiət Səttarı // Mədəniyyət. - 2019. - 20 dekabr. - № 93. - S. 5.

**Abdullayeva S.** Səttar Bəhlulzadənin qrafik əsərləri rəssamın ev-muzeyində sərgilənir // 525-ci qəzet. - 2014. - 7 noyabr. - S. 7.

**Altunbay O.** Rənglərin sultanı : Gözəllik zirvəsinin fəthi // 2019. – 30 aprel. - № 93. – S. 6.

**Azəri L.** Səttar Bəhlulzadənin sənət sərvəti // Mədəniyyət. - 2015. - 4 sentyabr. - S. 10.

**Bayramova Y.** Səttar Bəhlulzadə fenomeni... : Böyük rəng ustadının doğum günüdür // Yeni Azərbaycan. – 2022. – 15 dekabr. – S. 8.

**Əhmədova S.** Səttar möcüzəsi // Mədəniyyət. – 2020. – mart-aprel. – S. 100.

**Əliyev Z.** Səttar Bəhlulzadənin Şuşa sevgisi // Mədəniyyət. - 2022. - 28 sentyabr. - S. 7.

**Əliyev Z.** Naməlum Səttar : Xalq rəssamı Səttar Bəhlulzadənin naməlum əsərləri haqqında... // Kaspi. – 2017. – 11 noyabr. - № 190. – S. 24.

**Əliyev Z.** Səttar Bəhlulzadə dühasının parlaq plastik ifadəsi // 2017. – 15 dekabr. - № 98. – S. 12.

Xalq rəssamı Səttar Bəhlulzadənin xatirəsi anılıb // Mədəniyyət. - 2016. - 16 dekabr. - S. 2.

**Xəlilzadə F.** Səttar Bəhlulzadə və Qarabağ // Azərbaycan. - 2012. - 17 noyabr. - S. 7.

**Malik F.** Füzuli aşiqi rəssam // 525-ci qəzet. - 2019. - 20 dekabr. - № 166. - S. 16.

**Muradlı X.** Təbiətin Səttar rəngi // Azərbaycan. - 2019. - 15 dekabr. - № 279. - S. 7.

**Mükərrəmoğlu M.** Rəssamlıq onun tale yazısı idi // Xalq qəzeti. - 2017. - 15 dekabr. - S. 8.

**Mükərrəmoğlu M.** Səttarın rənglər dünyası // Xalq qəzeti. - 2015. - 20 dekabr. - S. 6.

**Novruzoğlu V.** Xalq əmanəti Səttar Bəhlulzadə // 525-ci qəzet. - 2012. - 20 oktyabr. - S. 10.

**Orucov E.** Bir Səttar vardı... : Səttar Bəhlulzadə - 105 // Xalq qəzeti. - 2014. - 5 dekabr. - S. 6.

**Sahəd A.** Səttar Bəhlulzadə : Kəpəzin göz yaşları // 525-ci qəzet. - 2020. - 22 iyul. - S. 20.

**Sahəd A.** Səttar Bəhlulzadə portreti // 525-ci qəzet. - 2022. - 23 fevral. - S. 20.

Səttar Bəhlulzadə (1909-1974) // Savalan. – 2017. – 2-5 iyun. - № 24. – S. 2.

Səttar Bəhlulzadə silsilə tədbirlərlə anıldı // 525-ci qəzet. - 2016. - 17 dekabr. - S. 12.

Səttar Bəhlulzadənin ev-muzeyində yeni eksponatların təqdimatı // Mədəniyyət. - 2018. - 19 dekabr. - S. 6.

Səttar Bəhlulzadənin karikaturalarının təqdimatı keçirilib // 525-ci qəzet. - 2016. - 19 fevral. - S. 4.

Səttar Bəhlulzadə yaradıcılığına daha bir müraciət // 525-ci qəzet. - 2020. - 4 sentyabr. - S. 9.

Tablolarda nağıllar : Səttar Bəhlulzadənin 115 illiyinə həsr edilmiş müsabiqə keçirilir // Mədəniyyət. - 2024. - 11 oktyabr. - № 76. - S. 2.

**Ulu Şirvanlı M.** Ruhun şad olsun, Səttar Bəhlulzadə!: Və yaxud rənglər dünyasının yeni rəngkarı // Mədəniyyət. - 2012. - 20 iyul. - S. 11.

**Umudlu E.** Səttar Bəhlulzadə yaddaşlarda necə qalıb? // Azərbaycan müəllimi. – 2014. - 6 iyun. - S. 10.